Məndən bir ayə olsa belə insanlara çatdırın. İsrail oğullarından da danışın, bunda bir qəbahət yoxdur. Kim mənim adımdan qəsdən yalan danışarsa, Cəhənnəmdə yerini hazırlasın

Abdullah ibn Amr ibn As - Allah ondan və atasından razı olsun - rəvayət edir ki, Peyğəmbər - səlləllahu aleyhi va səlləm - belə demişdir: "Məndən bir ayə olsa belə insanlara çatdırın. İsrail oğullarından da danışın, bunda bir qəbahət yoxdur. Kim mənim adımdan qəsdən yalan danışarsa, Cəhənnəmdə yerini hazırlasın".
[Səhih] [Əl-Buxari rəvayət etdi]

Peyğəmbər - səlləllahu aleyhi va səlləm - bizə Kitab və sünnədən olan elmin insanlara çatdırılmasını əmr etmişdir. Hətta çatdırılan elm Qurandan bir ayə və ya bir hədis olsa belə. Lakin bu çatdırdığı və dəvət etdiyi şey barədə elmli olması şərtdir. Sonra Peyğəmbər - səlləllahu aleyhi va səlləm - dinimizə müxalif olmayan İsrail oğullarının başına gələn ibrətamiz qissələrin də danışılmasında bir qəbahət olmadığını açıqlamışdır. Peyğəmbər - səlləllahu aleyhi va səlləm - onun adından yalan danışmağı qadağan etmiş və onun adından qəsdən yalan danışan kimsənin Cəhənnəmdə özünə yer hazırladığını bəyan etmişdir.

https://sunnah.global/hadeeth/az/show/3686

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee